# "Vaşinqton bataqlığı"nın təmsilçiləri sülhü hədəf alıb

## Ancaq onların bu istəkləri də gözlərində qalacaq

**1992**-ci ildə "Azadlığı Müdafiə Aktı" adlı qanunun 907-ci bölməsinə düzəlişə əsasən, ABŞ hökumətinin Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olunub. Həmin vaxt ermənipərəst ABŞ konqresmenlərinin əli ilə qəbul olunan bu ədalətsiz qərar yurdundan zorla didərgin salınan, suya, çörəyə möhtac, acınacaqlı vəziyyətdə vaqonlarda, çadır düşərgələrində, yataqxanalarda yaşamağa məcbur olan bir milyondan çox azərbaycanlının həyatına göstərilən amansız laqeydliyin, biganəliyin ən ikrahedici təzahürü idi.



Üzərindən 30 ildən çox vaxt keçməsinə baxmayaraq, bu günün özündə də ABŞ-nin erməni lobbisinin əsirinə çevrilən bəzi siyasətçiləri Azərbaycana qarşı qərəzlərindən hələ də əl çəkməyiblər. Bu günlər 87 konqresmenin ABŞ Prezidenti Donald Trampın administrasiyasına müraciət edərək ermənilərin "Dağlıq Qarabağa" qayıtmasına dəstək verilməsinə çağırmaları bunun bariz göstəricisidir. Müraciəti ABŞ Konqresində Ermənistanla dostluq qrupunun həmsədrləri Frank Peloni, Qas Bilirakis, Bred Şerman və Devid Valadaonun rəhbərliyi ilə hər iki partiyadan olan konqresmenlər imzalayıblar.

Təbii ki, həmin qərəzli müraciətin məhz Azərbaycan ilə Ermənistan arasında sülhə yaxın indiki həssas məqamda edilməsi bunun arxasında başqa mətləblər olduğundan xəbər verir. Məlumdur ki, iyulun 10-da Azərbaycan və Ermənistan liderləri Birləşmiş Ərəb Əmirliyinin Əbu-Dabi şəhərində bir araya gələrək ikitərəfli danışıqlar aparıblar. Heç bir vasitəçi olmadan keçirilən və sülh gündəliyinin irəliləməsi baxımından mühüm əhəmiyyətə malik olan görüş zamanı iki ölkə arasında sülh prosesi istiqamətində müzakirələr aparılıb və bunun davam etdirilməsi üçün razılaşmalar əldə edilib. Ardınca beynəlxalq birlik də sülh prosesi ilə əlaqədar əldə olunan müsbət irəliləyişlərlə bağlı dəstəyini bildirib. Əbu-Dabidə iki ölkə liderlərinin görüşündən sonra ABŞ Prezidenti Donald Tramp Ermənistanla Azərbaycan arasında münaqişənin tezliklə uğurla və birdəfəlik həll olunacağına inandığını açıqlayıb.

Bölgədə normallaşmaya nail olunması üçün mövcud maneələrin bir-bir aradan qaldırılmasını görən və sülh sənədinin imzalanmasına elə də çox zaman qalmadığını anlayan ermənipərəst ABŞ konqresmenləri belə bir həssas məqamda əllərində olan təzyiq rıçaqlarını yenidən işə salıblar. Onsuz da Azərbaycana qarşı qərəzi olan, eyni zamanda erməni lobbisinin pulla ələ aldığı rüşvətxor xarici qurum və siyasətçilər Qarabağdan könüllü köçən ermənisilli sakinlərdən özlərinin çirkin əməlləri üçün bir alət kimi vaxtaşırı istifadə edirdilər. Bu dəfə də ABŞ konqresmenleri həmin "rəqs"ə oynayırlar.

Əslində, Qarabağda yaşayan ermənisilli sakinlərin yaşamı, həyatı üçün heç bir risk olmadığı halda kütləvi şəkildə Ermənistana köç etmələri aydın göstərirdi ki, bu bir quramadır və gələcəkdə Azərbaycana qarşı təzyiq, təsir kartı kimi istifadə üçün planlaşdırılıb. İndi biz bu məkrli planın işə salındığını görürük. Ancaq reallıqlar tam fərqlidir. Fərq də bundan ibarətdir ki, Ermənistan tərəfindən yüzminlərlə azərbaycanlının fundamental hüquqları pozulub. Təcavüzkar ölkənin apardığı etnik təmizləmə siyasəti nəticəsində 1980-ci illərin sonlarında 300 min azərbaycanlı ata-baba yurdundan didərgin salınıb. Ermənistandan deportasiya edilən soydaşlarımıza qarşı görünməmiş qəddarlıqlar törədilib. Bu gün də qərbi azərbaycanlıların qayıdış hüququ təmin olunmayıb. Eyni zamanda Ermənistanın Birinci Qarabağ müharibəsi zamanı həyata keçirdiyi işğalçı müharibə yüz minlərlə azərbaycanlını məcburi köçkünə çevirmişdi. Həmin vaxt Ermənistan dinc sakinlərimizə qarşı qətliam həyata keçirmiş, insanlarımızı kütləvi məzarlıqlarda basdırmışdır. Qarabağ və Şərqi Zəngəzurda aşkarlanan kütləvi məzarlıqlar bunları sübut edir. Riyakar konqresmenlər isə azərbaycanlıların pozulmuş hüquqlarından indiyə qədər bir dəfə də olsun danışmağı lazım bilməyiblər.

Digər yandan, sözügedən qərəzli konqresmenləri rahatsız edən əsas məsələlərdən biri də Azərbaycan və ABŞ arasında münasibətlərin müsbət istiqamətdə dinamik inkişafıdır. İki ölkə liderləri - Donald Tramp və İlham Əliyev arasındakı şəxsi səmimi münasibətlərdən bəhrələnərək inkişaf edən bu əlaqələr gündən-günə möhkəmlənir. D.Trampın Azərbaycanın sülh səylərinə xüsusi dəstəyi də diqqətdən yayınmır.

Ümumiyyətlə, bəzi riyakar ABŞ siyasətçilərinin Vaşinqtonla digər ölkələrin arasında gərginlik formalaşdırdığı məlum həqiqətdir. O cümlədən Trampa etimadı zəiflətmək cəhdlərinin arxasında həm də indiyədək erməni diasporundan alınan pullar hesabına qeyri-şəffaf korrupsiya sxemləri qurmuş konqresmenlərin ifşa olunmaq qorxusu da məlumdur. B.Menendez korrupsiya və rüşvətxorluğa görə ittiham olunaraq həbs edilib, Adam Şiffi də eyni aqibət gözləyir. Keçən ilin payızında A.Şiffi ABŞ üçün daxili təhlükə adlandıran Tramp bu yaxınlarda onu oğru adlandırıb və vergi fırıldaqçılığında ittiham edib.

İyulun 19-da Prezident İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Trampın müharibələrə başlamamış yeganə ABŞ Prezidenti olduğuna diqqət çəkən Prezident İlham Əliyev vurğulamışdır ki, ABŞ lideri beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır: "Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun". Qeyd edək ki, ABŞ Prezidenti Donald Tramp özünün "Truth" sosial şəbəkə səhifəsində Prezident İlham Əliyevin Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə onunla bağlı söylədiyi fikirlərdən ibarət çıxışını paylaşıb. Beləliklə, ABŞ və Azərbaycan arasında müşahidə edilən bu münasibətlərin isə ermənipərəst konqresmenləri qane etməməsi gün kimi ortadadır.

Məlumat üçün bildirək ki, Azərbaycan QHT-ləri ABŞ Dövlət katibi Marko Rubioya müraciət ünvanlayaraq bildiriblər ki, sizə məktub ünvanlamış bir qrup ABŞ konqresmeninin Azərbaycanın suveren əraziləri mövzusunda riyakarlığı, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə qarşı fəaliyyəti Azərbaycan ictimaiyyətində kəskin hiddət doğurub: "Biz bu cür birtərəfli yanaşmaları rədd edirik. Hesab edirik ki, Bayden-Blinken dövrünün ermənipərəst simaları faktiki olaraq ABŞ Prezidenti Donald Trampın Cənubi Qafqazda sülh səylərinə qarşı açıq təxribata əl atıblar".

Müraciətdə deyilir ki, regiona aidiyyəti olmayan, məsələlərdən xəbərsiz şəxslərin ABŞ-dəki erməni lobbisinin maddi həvəsləndirmələri müqabilində məsuliyyətsiz bəyanatlara imza atmaları təəssüf doğurur: "Ötən il COP29 tədbiri zamanı Bakıya səfər etmiş konqresmen Frank Peloni yerli ictimai fəallar tərəfindən "Rədd ol!" şüarları ilə qarşılanmışdı. O, səfərini yarımçıq qoyaraq ölkəni rüsvayçılıqla tərk etmişdi.

Biz hesab edirik ki, bu gün Azərbaycanın suveren ərazilərinə ermənilərin qayıdışı haqqında danışan F.Peloni kimi konqresmenlər ilk növbədə Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu da tanımalıdırlar".

QHT-lərin müraciətində qeyd edilir ki, məlum müraciəti təşkil edənlər ABŞ və Azərbaycan liderlərinin yazışmalarından da aydın görünən ikitərəfli əlaqələrin yeni yüksəliş mərhələsinə qədəm qoymasından narahatdırlar: "İnanırıq ki, Cənubi Qafqazda davamlı sülhün bərqərar olması istiqamətində təqdirəlayiq əmək sərf edən Tramp Administrasiyası "Vaşinqton bataqlığı"nın təmsilçiləri olan bu konqresmenlərin fəaliyyətinə doğru qiymət verəcəkdir".

Bütün hallarda ABŞ-dəki erməni lobbisinin bölgədə barışı hədəf alan planları bu dəfə də suya düşəcək. Bu lobbiyə rəhbərlik edənlər isə öz layiqli cəzalarına çatacaqlar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 26 iyul (№ 153).- S.6.